# *Tur-aksiya iştirakçısı:*

# "Azərbaycanın hər bölgəsinin özünəməxsus gözəlliyi var"

"Azərbaycanın hər bölgəsinin özünəməxsus gözəlliyi var. "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiya çərçivəsində respublikamızın qərb bölgəsini gəzərkən buna bir daha əmin oldum. Dövlət başçısının tapşırığı ilə Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə ekskursiya zamanı bölgənin tarixi abidələri, insanları, adət-ənənələri ilə yaxından tanış olmaq imkanı əldə etdiyim üçün çox sevinirəm".



Bu sözləri müsahibəsində Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə tur-aksiyada iştirak edən Cəlilabad şəhər 7 nömrəli orta məktəbin X sinif şagirdi Azər Şükürov söyləyib.

Cəlilabadlı məktəbli deyib: "Mən ilk dəfədir kollektiv şəkildə səfərə çıxıram. Respublikamızın qərb bölgəsinə səfərimiz çərçivəsində Gəncə, Şəmkir və Göygölün tarixi-memarlıq abidələri, eləcə də müasir tikililəri ilə yaxından tanış oldum. İndi məndə qərb bölgəsi haqqında geniş məlumat var. Bundan başqa, burada olduğum müddətdə özümə çoxlu dost qazandım. Söhbət zamanı yaşadığım rayon haqqında onlara ətraflı məlumat verdim. Bizə yaradılan bu imkana görə Prezidentimizə məktəblilər adından təşəkkür edirəm".

**AZƏRTAC**